**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MALİYYƏ POTENSİALININ FORMALAŞMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ VASİTƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ PERSPEKTİVLƏRİ

İxtisas: 5308.01 – “Ümumi iqtisadiyyat”

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Təranə Vidadi qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Elnurə Bünyat qızı Məmmədova**

iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent
**Ramil Məhəmmədəli oğlu Əliyev**

iqtisadiyyat üzrə fəlsəfə doktoru
**Aqil Qədir oğlu Kərimov**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru,
dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri:

iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir şəraitdə maliyyə vəsaitlərinin dövriyyəsi və bölgüsü ölkənin maliyyə potensialının formalaşması, gücləndirilməsi və qiymətləndirilməsi istiqamətlərində zəruri fəaliyyətlərin həyata keçirilməsini tələb edir. Maliyyə potensialı iqtisadiyyatın müxtəlif sferalarında mövcud subyektlərin fəaliyyəti üçün zəruri şərt olmaqla, onların uğurunun təminatıdır. Eyni zamanda maliyyə potensialı sahələrin və subyektlərin cari və strateji maliyyə fəaliyyətlərini konseptual şəkildə əks etdirir. Ümumi şəkildə, subyektlərin maliyyə vəziyyəti, onların maliyyə potensialından əhəmiyyətli dərəcədə asılıdır və onun məzmunu bazar, resurs və istehsal potensialının müəyyən edilmiş parametrləri ilə əlaqəlidir. Təkcə subyektlərin deyil, bütövlükdə dövlətin və cəmiyyətin iqtisadi inkişafı maliyyə potensialının vəziyyətindən və ondan istifadənin səmərəliliyindən asılıdır. Bu baxımdan maliyyə potensialının formalaşması və qiymətləndirilməsi prosesi strateji məqsədlərə çatmaq üçün maliyyə mexanizmindən səmərəli istifadəyə yönəldilir.

İqtisadi artım strategiyası çərçivəsində maliyyə potensialından istifadənin planlaşdırılması, daha effektiv maliyyə strategiyasının formalaşdırılması üçün əsasların hazırlanmasının əhəmiyyətini daha da artırır. İqtisadiyyatın ayrı-ayrı sahələrinin və subyektlərin maliyyə resurslarından səmərəli istifadə, davamlı iqtisadi inkişaf üçün maliyyə idarəetmə strategiyasının həyata keçirilməsində effektiv alətlər sistemindən istifadəni və onu inkişaf etdirməyi tələb edir. Əslində subyektlərin fəaliyyəti üçün səmərəli maliyyə sistemi olmadan, iqtisadi artım effektinə nail olmaq mümkün deyil. Qeyd edilənlər göstərir ki, belə şərtlər daxilində effektiv maliyyə modelinə ehtiyac yaranır və bu model daxilində iqtisadi və maliyyə prosesləri əlaqələndirilir, maliyyə potensialının strateji və operativ idarəetməsinin vahid texnologiyası formalaşır. Beləliklə, maliyyə potensialının və strateji maliyyə planlaşdırılması sisteminin formalaşması iqtisadi artım strategiyasının bir hissəsi kimi onun mühüm metodoloji xüsusiyyətlərə və iqtisadi proseslərə uyğunlaşdırılması metodologiyası və konsepsiyasının inkişaf

etdirilməsi probleminin aktuallığını təsdiq edir.

Qeyd etmək lazımdır ki, müəyyən hallarda maliyyə potensialı yalnız operativ maliyyə idarəetməsi sistemində formalaşır və qiymətləndirilir. Ona görə də maliyyə potensialının səmərəli formalaşdırılması və obyektiv qiymətləndirilməsi üçün onun xüsusiyyətləri, həmçinin əməliyyat və strateji maliyyə idarəetmə sistemində təsnifatı ilə bağlı nəzəri və metodoloji baxımdan əsaslandırmaların aparılması zərurəti yaranır. Qeyd edilənlər göstərir ki, maliyyə potensialının inkişafı sistemini formalaşdırmaq, ondan istifadənin səmərəliliyini artırmaq üçün maliyyə resurslarını, eləcə də bu resursların hərəkətini qiymətləndirmək və onların səmərəli şəkildə idarə olunmasını təmin etmək vacibdir. Maliyyə potensialının səmərəli şəkildə formalaşdırılması və idarə edilməsi istiqamətində dövlət siyasəti, onun uzunmüddətli dövrdə inkişafına yönəldilir. Məhz bu məqsədlə - "maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi"[1] üçün "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanmış və təsdiq edilmişdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" "real iqtisadiyyatın maliyyələşdirilməsi" və "iqtisadiyyatda uzunmüddətli investisiya resurslarının cəlb edilməsinin sürətləndirilməsi"[2] vəzifələrini müəyyən edir. Maliyyə potensialının formalaşdırılması strategiyasının həyata keçirilməsi və bu sahədə səmərəliliyin təmin edilməsi, maliyyə xidmətləri sektorunun üzrərinə mühüm vəzifələr qoyur. Bu baxımdan maliyyə potensialının inkişafı və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi sistemini formalaşdırmaq, bu məqsədlə mövcud resursları və potensialın yaxşıalşdırılması imkanlarının qiymətləndirmək vacibdir. Həmçinin bu istiqamətdə keyfiyyətcə yeni, innovativ yolların axtarışı zərurətə çevrilməkdədir.

Maliyyə potensialının formalaşması və inkişafı müxtəlif amillərin

---

[1] Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. – Bakı: – 2016.

[2] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. – Bakı: – 2021.

qarşılıqlı təsiri ilə müşayət olu nduğundan o, həm maliiyə sferasında bazar potensialının artımını təmin edir, həm də maliyyə resurslarının mübadilə tezliyini sürətləndirməklə iqtisadiyyatın müxtəlif sferalarının iqtisadi potensialının yüksəlməsini şərtləndirir.

Məsələnin metodoloji aspektləri göstərir ki, maliyyə potensialının qiymətləndirilməsi prosesində istifadə olunan üsul və vasitələr əldə edilmiş cari qiymətləndirmələrin nəticələrini, eləcə də maliyyə potensialının faktiki vəziyyətini müəyyən etməyə imkan verir. Bununla əlaqədar olaraq, maliyyə idarəetməsi sistemində maliyyə potensialının keyfiyyətcə daha yüksək səviyyədə formalaşmasının və obyektiv qiymətləndirilməsinin təmin edilməsinin zəruriliyi dissertasiya mövzusunun aktuallığını təsdiq edir.

Maliyyə potensialının formalaşması və qiymətləndirilməsi vasitələrinin inkişaf etdiriməsi problemləri ilə məşğul olan respublika iqtisadçıları arasında: Z.Ə.Səmədzadə, B.X.Ataşov, N.M.Müzəffərli (İmanov), Ə.Ə.Ələkbərov, S.M.Məmmədov, Z.F.Məmmədov, Z.T.Vəliyev, M.M.Sadıqov, M.M.Bağırov, M.C.Hüseynov, M.X.Həsənli, E.Ə.İbrahimov, E.B.Məmmədova, R.A.Bəşirov, N.R.Quliyev və başqalarının adlarını göstərə bilərik.

Xarici ölkə alimlərindən E.I.Altman, T.K.N. Baidya, L.M.Ribeirodias, A.İ.Borodin, A.L.Kolomiets, A.G.Qryaznova, N.A.Kolesnikova, Г.Б.Поляк, T.F.Yutkina, E.V.Borovikova, E.A.İsaev və başqaları bu istiqamətdə araşdırmalar aparmışlar.

Qeyd etmək lazımdır ki, yerli və xarici ölkə alimlərinin araşdırmalarında əsasən maliyyə potensialının vəziyyətinə təsir edən amillər konkret iqtisadi subyekt timsalında müəyyənləşdirilmiş, təhlil edilmiş və qiymətləndirilmişdir. Eləcə də maliyyə potensialının təsnifatı problemlərinin öyrənilməsi, maliyyə potensialının qiymətləndirilməsinin metodoloji aspektləri müəssisələr səviyyəsində nəzərdən keçirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti Azərbaycan Respublikasında maliyyə potensialının formalaşması və qiymətləndirilməsi prosesidir. Tədqiqat işinin predmetini maliyyə münasibətlərinin və potensialının formalaşması, onların qiymətləndirilməsi ilə əlaqədar müxtəlif elmi baxışların tədqiqi, bu istiqamətdə meydana çıxan iqtisadi münasibətlər, təşkilati-iqtisadi

mexanizmlər, üsul və vasitələr və qiymətləndirmə vasitələrinin inkişaf etdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın işinin məqsədi maliyyə potensialının formalaşdırılması və qiymətləndirilməsi vasitələrinin araşdırılması əsasında bu sahədə inkişaf istiqamətlərinin müəyyən edilməsi və əsaslandırılmasıdır. Tədqiqatın işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- maliyyə potensialının formalaşması ilə bağlı elmi-nəzəri məsələlərin araşdırlması və ümumiləşdirmələr aparılması;
- maliyyə potensialının qiymətləndirilməsi metodologiyasının araşdırlması, qiymətləndirmədə istifadə edilən daha effektiv vasitələrin səciyyələndirilməsi;
- maliyyə potensialının iqtisadi inkişafın dayanıqlığındakı rolunun tədqiq edilməsi;
- ölkə iqtisadiyyatı səviyyəsində maliyyə potensialı və ondan istifadənin mövcud vəziyyətinin təhlili;
- maliyyə potensialından istifadə vəziyyətinin qiymətləndirilməsi;
- maliyyə potensialından istifadəyə təsir edən amillərin tədqiqi və müvafiq proqnozlaşdırılmasının əsaslandırılması;
- maliyyə potensialının yaxşılaşdırılması ilə bağlı daha effektiv dövlət dəstəyi mexanizminin işlənib hazırlanması;
- maliyyə potensialından istifadənin yaxşılaşdırılması istiqamətlərinin səciyyələndirilməsi;
- maliyyə potensialının qiymətləndirilməsinin inkişaf etdirilməsi perspektivlərinin müəyyənləşdirilməsi və mövzu ilə əlaqədar təklif və tövsiyələrin verilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işində analiz, sintez, iqtisadi-riyazi, iqtisadi-statistik, analitik təhlil, müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim edilmiş əsas müddəalar aşağıdakılardır:

- maliyyə potensialının iqtisadi mahiyyəti və xüsusiyyətləri ilə bağlı nəzəri və metodoloji aspektlərin ümumiləşdirilməsi zəruridir;
- maliyyə potensialının qiymətləndirilməsində mövcud vasitələrdən

istifadənin metodoloji aspektlərinin xarakterizə edilməsinə ehtiyac duyulur;

- maliyyə potensialının formalaşdırılması və inkişafı, həmçinin maliyyə strategiyasının işlənib hazırlanması ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərinin ümumiləşdirilməsi müasir dövrün tələbidir;
- maliyyə potensialından makro səviyyədə istifadənin və ona təsir edən amillərin qiymətləndirilməsi, qiymətləndirmədə alternativ vasitələrdən istifadənin effektivliyinin müəyyən edilməsi müstəsna əhəmiyyət kəsb edir;
- maliyyə potensialından istifadənin yaxşılaşdırılması və qiymətləndirilməsi vasitələrinin inkişaf etdiriməsi ilə bağlı siyasətin strateji istiqamətlərinin tədqiqatı müasir dövrün tələbidir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- maliyyə potensialının iqtisadi məzmununa dair nəzəri müddəalara əsaslanaraq maliyyə fəaliyyətinin mikro və makro səviyyədə məqsədləri, maliyyə potensialının formalaşma mənbələri müəyyən edilmişdir;
- maliyyə potensialının dayanıqlı iqtisadi inkişafda rolu əsaslandırılmaqla, əlavə dəyərin yaradılması baxımından qiymətləndirmə və alternativ metodlar arasında əlaqə müəyyən edilmişdir;
- maliyyə potensialı və ondan istifadənin mövcud vəziyyəti təhlil edilməklə strateji qiymətləndirmə üçün model hazırlanmış, modelə daxil edilən göstəricilər arasındakı əlaqə və asılılıq əsaslandırılmışdır;
- maliyyə potensialından istifadəyə təsir edən amillər araışdırılmaqla ekonometrik qiymətləndirmədən istifadə etməklə həmin amillərin maliyyə potensialına kəmiyyət baxımından təsiri müəyyən edilmişdir;
- maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı müasir çağırışlara uyğun olaraq maliyyə potensialının idarə edilməsinin daha təkmil mexanizmlərinin tətbiqi üzrə prioritetlər, o cümlədən potensial imkanlar nəzərə alınmaqla maliyyə resurslarının

formalaşdırılması və istifadəsinin optimal variantının seçilməsi və s. müəyyənləşdirilmişdir;

- maliyyə potensialından istifadənin yaxşılaşdırılması və qiymətləndirilməsinin inkişaf etdiriməsi perspektivləri müəyyən edilmiş, planlaşdırma və proqnozlaşdırmadan istifadə etməklə, maliyyə potensialından səmərəli istifadə üzrə siyasətin təkmilləşdirilməsinin strateji aspektləri əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti maliyyə potensialının formalaşması və qiymətləndirilməsi alətlərinin inkişafının elmi əsaslarının genişləndirilməsindən ibarətdir. Bu istiqamətdə əldə edilmiş nəticələr maliyyə potensialının formalaşması və qiymətləndirilməsi problemi üzrə tədqiqatların nəzəri və metodoloji əsaslarını yaratmağa imkan verir. Tədqiqatın praktiki əhəmiyyəti maliyyə potensialının formalaşdırılması və qiymətləndirilməsi vasitələrinin işlənib hazırlanması üçün nəzəri, metodoloji və praktiki əsas təşkil edən metodların, vasitələrin, modellərin və təkliflərin işlənib hazırlanması və istifadəsində əksini tapır. Həmçinin maliyyə resurslarından səmərəli istifadə ilə bağlı fəaliyyətlərin səmərəliliyini əsaslandırılmış şəkildə qiymətləndirməyi təmin edən alternativ metodlar və modellərdən təcrübədə geniş istifadə etmək mümkündür. Əldə edilmiş nəticələr və irəli sürülən təkliflərdən iqtisadiyyatın maliyyə dayanıqlığının təmin edilməsi siyasətinin formalaşdırılmasında və təkmilləşdirilməsində də istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu beynəlxalq və respublika səviyyəli jurnallarda, həmçinin konfrans materiallarında dərc olunmuş 7 tezisdə (3-ü xaricdə olmaqla) və 5 məqalədə (2-i xaricdə olmaqla) öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlər sırasında "Ölkənin maliyyə potensialının qiymətləndirmə metodikası" (Sumqayıt, 2022), "Maliyyə potensialının formalaşmasının nəzəri əsasları" (Gəncə, 2022), "Maliyyə münasibətlərinin inkişafında dövlət siyasətinin prioritetləri" (Sumqayıt, 2022), "Maliyyə potensialından istifadənin yaxşılaşdırılması yolları" (Gəncə, 2023), "Перспективы повышения финансового потенциала" (Manchester, 2022), "Современные

аспекты финансовой политики: эффективность использования финансовых ресурсов” (Berlin, 2023), “Планирование и прогнозирование использования финансового потенциала” (Berlin, 2023) adlı tezisləri, “Maliyyə potensialı və onun formalaşması mexanizmi” (Gəncə, 2020), “Maliyyə potensialı və onun idarə edilməsinin effektivliyi” (Gəncə, 2021), “Maliyyə potensialının qiymətləndirilməsinin maliyyə sabitliyinin təmin olunmasında əhəmiyyəti” (Bakı, 2022), “Факторы, влияющие на формирование финансового потенциала экономики” (Москва, 2022), “Opportunities and problems of application of index insurance model in Azerbaijan” (Germany, 2022) adlı məqalələri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Aqrar Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla ümumilildə 235714 işarədir. Giriş 12108 işarə, I fəsil 73208 işarə, II fəsil 51239 işarə, III fəsil 59349 işarə, nəticə 7206 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 19280 işarə təşkil edir. Dissertasiya işi şəkillər, cədvəllər, qrafik və ədəbiyyat siyahısı istisna olmaqla 203110 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **“Maliyyə potensialının formalaşması və qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları”** adlı birinci fəslində maliyyə potensialının formalaşması ilə bağlı elmi-nəzəri baxışlar, maliyyə potensialının qiymətləndirilməsi metodologiyasına yanaşmalar, maliyyə potensialı və onun idarə edilməsi iqtisadi inkişafın əsası kimi məsələlər şərh edilmişdir.

Qloballaşma prosesinin dərinləşməsi ilə müşahidə olunan yüksək qeyri-müəyyənlik şəraitində, iqtisadi sistemlərin inkişafı prosesinin

əsas elementi effektiv iqtisadi strategiyaların hazırlanması və həyata keçirilməsi ilə birbaşa bağlıdır. İqtisadi inkişaf strategiyasının formalaşdırılması qarşıya qoyulmuş hədəflərə çatmağa, o cümlədən sahələrin və konkret subyektlərin fəaliyyət risklərini azaltmağa, xarici təsirlərin perspektivlərini proqnozlaşdırmağa, daxili potensialı və resurs imkanlarını qiymətləndirməyə, onlardan səmərəli istifadəni təmin etməyə, iqtisadi idarəetmənin bütün elementləri və vasitələrini əlaqələndirməyə əlverişli şərait yaradır. Belə strategiyanın formalaşdırılmasında əsas məqsədlərdən biri iqtisadi sistemin uzunmüddətli rəqabətə davamlığını təmin etməkdir. Müasir şəraitdə rəqabət qabiliyyətinin təmin edilməsində aparıcı rol, öz resurslarının əlaqələndirilməsinə əsaslanan və koordinasiya olunmuş fəaliyyət göstərən iqtisadi subyektlərə məxsusdur. İqtisadi sferalarda bu cür qarşlılıqlı fəaliyyətlə müşayət olunan sistemlər inteqrasiya edilmiş iqtisadi sistemlər kimi müəyyən olunur.

Ümumiyyətlə, iqtisadiyyatın müxtəlif sferalarının balanslı inkişafını təmin etmədən ölkənin sosial-iqtisadi inkişafından danışmaq mümkün deyil. Sənaye, kənd təsərrüfatı, nəqliyyat, mənzil-kommunal və digər infrastrukturların formalaşmasına əsaslanan səmərəli iqtisadi və institusional mühitin yaradılması, əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün əlverişli şərait təmin edən sosial sahələrin inkişaf etdirilməsi, sosial-iqtisadi inkişafda tarazlığın təmin olunması ümumi iqtisadi strategiyanın prioritetlərindən hesab edilir. Göstərilən tədbirlərin həyata keçirilməsi, ilk növbədə maliyyə ehtiyatlarının yaradılması və ya bu prosesə maliyyə resurslarının cəlb edilməsi imkanlarından asılıdır. İqtisadi proseslərin müxtəlif mərhələlərində rəqabət üstünlüklərinin formalaşması da məhz böyük dərəcədə maliyyə vəsaiti tələb edir və effektiv maliyyə strategiyasının formalaşdırılmasını nəzərdə tutur.

İqtisadiyyatın qloballaşması və inteqrasiya prosesləri, müxtəlif iqtisadi proseslərdə rəqabət üstünlüklərini artırmaq üçün maliyyə resurslarının formalaşması və istifadəsi problemlərinin əhəmiyyətini daha da artırır. Maliyyə resurslarının formalaşması mexanizminin əsasını maliyyə potensialı təşkil edir. Bu konsepsiyanın nəzəriyyədə və praktikada istifadəsi iqtisadiyyatın müxtəlif sferalarının maliyyə imkanlarını müəyyən etməyə və maliyyə resurslarını müqayisə

etməyə, maliyyənin effektivliyini qiymətləndirməyə, istehsal sahələrinin maliyyə cəhətdən təminatını aşkar etməyə, maliyyə təhlükəsizliyini qiymətləndirməyə, iqtisadiyyatda struktur dəyişikliklərinin istiqamətlərini müəyyən etməyə imkan verir.

Maliyyə potensialı iqtisadi subyektlərin resurslarının dövriyyəsi zamanı pul gəlirlərinin, əmanətlərin və fondların formalaşması və istifadəsi proseslərini əks etdirən münasibətlər sistemi kimi başa düşülür. Maliyyə potensialı pul vəsaitlərinin axını və hərəkəti nəticəsində meydana çıxan fondların fəaliyyəti ilə əlaqələndirilir. Bazar münasibətlərinin formalaşması ilə əlaqədar olaraq hazırda iqtisadiyyatın sferalarının və konkret subyektlərin iqtisadi və hüquqi məsuliyyəti, eləcə də maliyyə sabitliyinin əhəmiyyəti xeyli artmışdır. Çünki maliyyə potensialı, sektorların milli iqtisadiyyatdakı rolunu müəyyənləşdirməklə rəqabətə davamlılığının əsas amilinə çevrilir.

Mövcud bazar şəraitində maliyyə potensialı, maliyyə sabitliyinin təmin olunmasının və effektiv inkişafın təməl amillərindən biridir. Maliyyə sabitliyinin formalaşmasının təməli isə iqtisadi fəaliyyətin ən vacib xüsusiyyəti olan maliyyə vəziyyətidir. Maliyyə vəziyyəti rəqabət qabiliyyətlilik, gəlirlərin səviyyəsi, maliyyə sabitliyi, investisiya imkanları, eləcə də iqtisadi inkişafın cari və gələcək dinamikası barədə ümumi nəticəyə gəlməyə əsas verir. Göstərilənlər öz növbəsində maliyyə potensialının mövcud vəziyyətini və inkişaf perspektivlərini qiymətləndirməyə zəmin yaradır.

Maliyyə potensialı və maliyyə resurslarından istifadənin səmərəliliyi maliyyə sabitliyinin əsas şərtlərindən biridir. Ümumiyyətlə, bütövlükdə iqtisadiyyatın, o cümlədən ayrı-ayrı sferaların inkişafı düzgün maliyyə siyasəti olmadan mümkün deyil. Bu özünü ilkin olaraq investisiya fəaliyyətinin aktivləşdirilməsində, habelə investisiya qoyuluşları əsasında innovasiya bazasının formalaşdırılmasında göstərir. Nəticədə, maliyyə vəziyyətinin yaxşılaşmasına, texnoloji yeniliklərin tətbiqi ilə bağlı fəallığın və rəqabətə davamlığın artmasına zəmin yaranır və iqtisadi fəaliyyət üçün sabit mühit formalaşır.

Nəzərə almaq lazımdır ki, maliyyə potensialı həm konkret iqtisadi subyektin fəaliyyətinə, həm də bütövlükdə ölkə iqtisadiyyatına ciddi təsir göstərir. Bu amil ölkənin və sahələrin iqtisadi təhlükəsizliyini

təmin etmək üçün mühüm bir şərtdir və aşağıdakı məsələləri əhatə edir: iqtisadi sfera və ya subyektin kifayət qədər maliyyə resursu yaratmaq qabiliyyəti; maliyyə və bank sisteminin inkişaf səviyyəsi; dövlət orqanlarının fəaliyyətinin effektivliyi; dövlət, sahə və subyektlərin məqsəd və maraqlarının əlaqələndirilməsi və sosial-iqtisadi inkişaf üçün təhdidlərə, ortaya çıxan təhlükə və risklərə çevik reaksiya vermə qabiliyyəti və s. Bundan əlavə, maliyyə potensialı iqtisadiyyatın sferalarının sosial-iqtisadi inkişafının həyata keçirilməsi üçün zəruri informasiya sistemini əhatə edir. Beləliklə, maliyyə potensialının formalaşması və səmərəli istifadəsi iqtisadiyyatın bütün səviyyələrində həyata keçirilən maliyyə siyasətinin zəruri aspektlərini özündə birləşdirir.

**"Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi: maliyyə potensialı və ondan istifadə səviyyəsinin qiymətləndirilməsi"** adlı ikinci fəsildə ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəricilərin təhlili aparılır, iqtisadiyyatın maliyyə potensialının mövcud vəziyyəti və maliyyə potensialının yüksəldilməsi imkanları qiymətləndirilir.

Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi müxtəlif istiqamətli dəyişikliklərinin ümumi tendensiyalarını əks etdirməklə ayrı-ayrı sferaların inkişaf komponentlərini və meyarlarını özündə birləşdirir. Müasir şəraitdə iqtisadi inkişafın yüksək tempinə nail olmaq iqtisad siyasətin prioritetlərindən hesab olunur. Milli iqtisadiyyatın vəziyyəti cəmiyyətin uzunmüddətli inkişafını şərtləndirir. İqtisadi inkişafın təmin edilməsi, ilk növbədə iqtisadiyyatın daha təkmil strukturunun formalaşmasına, istehsal sferalarının dayanıqlığna və insanların rifahının yüksəldilməsinə yönəlir. Məhz iqtisadi inkişaf sosial-iqtisadi baxımdan uzunmüddətli perspektiv üçün etibarlı zəmin yaradır.

Araşdırmalar göstərir ki, iqtisadi inkişaf tarazlıq problemlərinin həlli və potensial artıma nail olmaq baxımından yeni texnologiyaların tətbiqini ön plana çıxarır. Elmi-texniki tərəqqi investisiyalara əsaslanan ən mühüm texnoloji yeniliklərin tətbiqini ehtiva etdiyindən iqtisadi inkişaf tempi, onun insan kapitalından və texnoloji innovasiyaların sürətindən asılılığını ortaya qoyur. Bu o deməkdir ki, iqtisadi inkişaf istehsal resurslarından istifadənin nəticələrinin müəyyən dövr ərzində kəmiyyət və keyfiyyətcə artmasını nəzərdə tutur. Qeyd etmək lazımdır ki, müasir qlobal

rəqabət şəraitində dövlətin iqtisadi yüksəlişi innovasiyaların yaradılması ilə birbaşa bağlıdır və bu prosesin həyata keçirilməsi inkişaf etmiş innovasiya infrastrukturuna söykənir. Bu baxımdan dövlətin stimullaşdırma tədbirlərini və müxtəlif strukturlarının elmi-texniki tədqiqat fəaliyyətinə müdaxiləsini nəzərdə tutan innovasiya siyasəti xüsusi aktuallıq kəsb edir. Müasir şəraitdə iqtisadiyyatın inkişafının prioritet vəzifələrini müəyyən edərkən, bu prosesin ən əhəmiyyətli qanunauyğunluqlarını və əlaqələrini əks etdirən iqtisadi inkişaf amillərinin səviyyəsini xarakterizə edən göstəricilərin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi inkişafın əsas makro göstəricilərindən biri ümumi daxili məhsulun (ÜDM) artımıdır. Bu göstərici əsasında ölkə iqtisadiyyatının inkişaf tempi və səviyyəsi müəyyən edilir, iqtisadiyyatın səmərəliliyi təhlil edilir. ÜDM-in artması əhalinin həyat səviyyəsinin yaxşılaşması, məşğulluğun artması və istehlakın yüksəlməsi ilə ifadə olunur. ÜDM beynəlxalq statistik fəaliyyət və ölkənin iqtisadi inkişafının təhlili üçün də xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Respublikası üzrə ümumi daxili məhsulun təhlili göstərir ki, 2018-2022-ci illərdə dinamik artım baş vermişdir. Belə ki, 2018-ci illə müqayisədə 2022-ci ildə ÜDM-in artımı 67,1%, dollar ifadəsində 67,1%, avro ilə 87,3% təşkil etmişdir. Adambaşına ümumi daxili məhsulda da oxşar vəziyyət müşahidə olunur. Araşdırmaların aparıldığı dövrdə bu göstərici 62,5%, dollarla 60,7%, avro ilə 82,2% artmışdır. Yalnız 2020-ci ildə Covid 19 pandemiyasının təsiri ilə əvvəlki illə müqayisədə adambaşına ümumi daxili məhsulda 11,4% azalma qeydə alınmışdır (cədvəl 1).

İqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətliliyinin təmin edilməsində aparıcı rol iqtisadi resurslardan səmərəli istifadə əsasında əlaqələndirilmiş fəaliyyət həyata keçirən müəssisə və təşkilatlara məxsusdur. Dəyər zəncirinin müxtəlif mərhələlərində rəqabət üstünlüklərinin formalaşması və inkişafı müvafiq resurs və maliyyə dəstəyi, eləcədə effektiv maliyyə strategiyasının formalaşdırılmasını tələb edir. Maliyyə strategiyasının məqsədi iqtisadi sistemin maliyyə parametrlərinin təkmilləşdirilməsi üçün seçilmiş sahələr sistemində konkret tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsindən ibarətdir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında ÜDM və 1 nəfərə düşən ÜDM-in həcmi, manat, dollar və avro ilə**

| İllər | Cəmi | | | Adambaşına | | |
|---|---|---|---|---|---|---|
| | milyon manatla | milyon dollarla | milyon avro ilə | manatla | dollarla | avro ilə |
| 2018 | 80092,0 | 47112,9 | 39858,7 | 8156,2 | 4797,8 | 4059,0 |
| 2019 | 81896,2 | 48174,2 | 43019,5 | 8268,8 | 4864,0 | 4343,5 |
| 2020 | 72578,1 | 42693,0 | 37407,5 | 7277,4 | 4280,8 | 3750,9 |
| 2021 | 93203,2 | 54825,4 | 46312,1 | 9278,9 | 5458,2 | 4610,6 |
| 2022 | 133825,8 | 78721,1 | 74642,1 | 13256,3 | 7707,8 | 7393,8 |
| 2018-ci illə müqayisədə 2022-ci ildə, %-lə | 167,1 | 167,1 | 187,3 | 162,5 | 160,7 | 182,2 |

*Mənbə: cədvəl https://www.stat.gov.az/source/system_nat_accounts/ məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Dövlət büdcəsinin mədaxilinin əsasını vergi və qeyri-vergi daxilolmaları, habelə büdcədən kənar fondlardan daxil olan vəsaitlər təşkil edir. Qeyd edilənlərdən məlum olur ki, iqtisadiyyatın maliyyə potensialının mühüm göstəricilərindən biri dövlət büdcəsinin gəlirləri hesab edilir. Məhz büdcə gəlirləri hesabına müxtəlif sferaların dövlət tərəfindən maliyyələşdirilməsi, o cümlədən stimullaşdırma məqsədli subsidiyaların tətbiqi həyata keçirilir. Məlumdur ki, dövlət büdcəsinin mədaxili əsasən vergilər hesabına formalaşır. Araşdırmalar göstərir ki, 2018-ci ilə nisbətən 2022-ci ildə büdcə gəlirləri əhəmiyyətli dərəcədə - 29,7% artmışdır. O cümlədən fiziki şəxslərin gəlir vergisində 49,1%, hüquqi şəxslərin mənfəət (gəlir) vergisində 2,1 dəfə, əmlak vergisində 29,6%, əlavə dəyər vergisində 33,4%, aksizdə 75,2%, mədən vergisində 3,4%, sair daxilolmalarda 16,3 dəfə artım baş vermişdir. Yalnız torpaq vergisi 9,1% azalmışdır. Dövlət büdcəsinin xərclərinin tərkibində 2018-ci illə müqayisədə 2022-ci ildə iqtisadiyyata yönələn xərclərdə azalma, digər istiqamətlər üzrə artım qeydə alnmışdır (cədvəl 2).

**Cədvəl 2**

## Dövlət büdcəsinin gəlir və xərcləri, milyon manat

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci illə müqayisədə 2022-ci ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| **Gəlirlər-cəmi** | 22508,9 | 24218,1 | 24124, 0 | 25427,0 | 29197, 8 | 129,7 |
| Fiziki şəxslərin gəlir vergisi | 995,9 | 952,1 | 1 130,0 | 1 150,0 | 1 485,0 | 149,1 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2499,7 | 2546,0 | 2 267,7 | 2 144,0 | 5 290 ,0 | 2,1 dəfə |
| Torpaq vergisi | 50,6 | 50,0 | 40,0 | 186,0 | 46 ,0 | 90,9 |
| Əmlak vergisi | 182,2 | 212,6 | 186,0 | 211,0 | 236 ,1 | 129,6 |
| Əlavə dəyər vergisi | 4287,6 | 5185,1 | 4 598,4 | 4710,0 | 5718,7 | 133,4 |
| Aksiz | 728,6 | 854,7 | 936,4 | 1059,0 | 1276,8 | 175,2 |
| Mədən vergisi | 137,4 | 133,8 | 129,5 | 138,0 | 142, 02 | 103,4 |
| Sair daxilolmalar | 11,9 | 12,6 | 86,8 | 65, 4 | 193,7 | 16,3 dəfə |
| **Xərclər-cəmi** | 22731,6 | 24425,9 | 27492,2 | 28543,0 | 32303,8 | 142,1 |
| İqtisadiyyat | 7822,7 | 7961,5 | 5 832, 8 | 5 947,4 | 7 067,9 | 90,4 |
| Təhsil | 1966,6 | 2195,7 | 3 034,7 | 3 277,6 | 3 886,6 | 197,6 |
| Səhiyyə | 709,9 | 873,6 | 1 716,5 | 1 378,6 | 1 708,7 | 2,4 dəfə |
| Sosial müdafiə və sosial təminat | 2150,7 | 2281,0 | 3 237,0 | 3 692,7 | 3 728,5 | 173,4 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 299,5 | 335,8 | 426,0 | 418,1 | 463,1 | 154,6 |
| elm | 117,8 | 122,3 | 187,3 | 151,8 | 204,9 | 173,9 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1316,4 | 1505,1 | 1936,7 | 2092,8 | 2482,2 | 188,6 |
| qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanması | 627,4 | 774,5 | 1051,8 | 1062,4 | 1481,8 | 2,4 dəfə |

*Mənbə: cədvəl https://www.stat.gov.az/source/finance/ məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Araşdırmalar göstərir ki, maliyyə potensialının qiymətləndirilməsində iqtisadi sistemin həm cari dövrdə, həm də gələcəkdə maliyyə potensialını xarakterizə edən kəmiyyət və keyfiyyət göstəricilərini təhlil etmək vacibdir. Müvafiq olaraq, maliyyə potensialının müqayisəli qiymətləndirilməsində istifadə olunan göstəricilər maliyyə fəaliyyətinin xüsusiyyətləri ilə əlaqələndirilməlidir. Bu baxımdan maliyyə potensialını xarakterizə edən mühüm göstəricilərdən olan maliyyə aktivlərinin yığımı dinamikasının təhlilinə ehtiyac var.

Xalis maliyyə aktivlərinin yığım indeksinə nəzər saldıqda məlum olur ki, son 2018-2022-ci illərdə müxtəlif istiqamətlərdə dəyişikliklər baş vermişdir. Belə ki, 2018-2019-cu illər istisna olmaqla digər iillərdə artım qeydə alınmışdır. Maliyyə aktivlərinin yığımı üzrə indeksin artım səviyyəsi 2020-ci ildə 21,7%, 2021-ci ildə 19,4%, 2022-ci ildə 11,5% təşkil etmişdir (qrafik 1).




**Qrafik 1. Xalis maliyyə aktivlərinin yığım indeksi**

Qeyd edilənlər göstərir ki, maliyyə potensialının təhlili iqtisadiyyatın və onun sahələrinin mövcud vəziyyətini müəyyən etməyə imkan verməklə, yaxın və uzunmüddətli perspektiv üçün dövlətin iqtisadi prioritetlərini müəyyənləşdirməyə, o cümlədən maliyyə resurslarının idarə edilməsinin səmərəliliyini təmin etməyə imkan verir. Beləliklə, maliyyə potensialının təhlili və qiymətləndirilməsinin kifayət qədər müxtəlif üsulları mövcuddur ki,

onlar iqtisadi reallıqlara uyğun olaraq nəticələrin keyfiyyətini artırmaq üçün yeni prioritetlər müəyyənləşdirməyi tələb edir.

Maliyyə potensialının təhlilində investisiya resurslarından istifadənin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. İnvestisiyalar iqtisadiyyatın inkişafına kapital qoyuluşlarını, iqtisadi nəticə əldə etmək məqsədilə subyektlərin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi tədbirlərini əhatə edir. İnvestisiya fəaliyyəti bir sıra spesifik xüsusiyyətlərə malikdir: kapital qoyuluşları və nəticələrin əldə edilməsində fərqliliklər; alternativ investisiya variantlarının mövcudluğu; maliyyə resurslarının zəruriliyi; müəssisə çərçivəsində investisiya fəaliyyətinin məhdudlaşdırılmasının qeyri-mümkünlüyü və s.

Ümumiyyətlə, bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın, onun sahələrinin və subyektlərin dayanıqlı inkişafının ən mühüm şərti investisiya fəaliyyətidir. İqtisadiyyata investisiya qoyuluşlarının dinamikası göstərir ki, 2018-2022-ci illərdə cəmi investisiya qoyuluşlarında 12,6% artım baş vermişdir, dollar ifadəsində də bu artım 12,6% təşkil etmişdir. Müvafiq dövrdə xarici investisiyalar 6,3% artmışdır. Daxili investisiyalarda əhəmiyyətli artım müşahidə edilir: manat ifadəsində 20,%, dollarla 20,1% (cədvəl 3).

**Cədvəl 3**

**İqtisadiyyata yönəldilən investisiyalar**

| İnvestisiyalar | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci ilə nisbətən 2022-ci ildə,%-lə |
|---|---|---|---|---|---|---|
| Cəmi: mln.manat | 25877,0 | 24986,6 | 22484,0 | 25313,8 | 29135,1 | 112,6 |
| mln.dollar | 15221,7 | 14698,0 | 13225,9 | 14890,4 | 17138,3 | 112,6 |
| Xarici investisiyalar: | | | | | | |
| mln.manat | 14002,1 | 12119,5 | 10413,2 | 12751,9 | 14879,3 | 106,3 |
| mln.dollar | 8236,5 | 7129,1 | 6125,4 | 7501,1 | 8752,5 | 106,3 |
| Daxili investisiyalar: | | | | | | |
| mln.manat | 11874,9 | 12867,1 | 12070,8 | 12561,9 | 14255,8 | 120,0 |
| mln.dollar | 6985,2 | 7568,9 | 7100,5 | 7389,3 | 8385,8 | 120,1 |

*Mənbə: cədvəl https://www.stat.gov.az/source/finance/ məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Göründüyü kimi, iqtisadiyyatın maliyyə potensialının formalaşmasında daxili investisiyaların rolu daha yüksəkdir. Xarici investisiya qoyuluşlarının əsas səbəblərindən biri kimi, ilk növbədə beynəlxalq maliyyə sferasında baş verən dalğalanmaları və pandemiyanın təsirlərini qeyd etmək olar.

İqtisadiyyatın mövcud maliyyə potensialının yüksəldilməsi investisiya qoyuluşlarının artırılması istiqamətlərinin və yollarının axtarılmasını tələb edir. Ümumiyyətlə, maliyyə potensialı iqtisadiyyatın sahələrinin və subyektlərin investisiya imkanlarının, habelə maliyyə infrastrukturunun inkişaf səviyyəsinin müəyyənləşdirilməsinə əsaslanır. Bu, ayrı-ayrı struktur elementlərdəki dəyişiklikləri, eləcə də sahələrin maliyyə potensialının inkişaf dinamikasındakı meylləri müşahidə etməyə imkan verir. Nəticədə maliyyə potensialının formalaşdırılması, daha səmərəli istifadəsi və idarə edilməsi üzrə qərarların qəbulunu həyata keçirmək mümkündür.

Hazırda iqtisadi inkişafın innovativ komponentlərinin səmərəli formalaşdırılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin etmək onun idarə edilməsinin ümumi prinsiplərinə əsaslanır. Bu da öz növbəsində maliyyə-iqtisadi inkişafın prinsiplərinə uyğun olaraq innovasiya siyasətinin effektivliyini, müəyyən edilmiş məqsədlərə nail olmaq üçün resurslardan istifadənin səmərəliliyini, idarəetmə qərarlarının keyfiyyətini müəyyənləşdirir. Qeyd etmək lazımdır ki, maliyyə-iqtisadi potensialın yüksək həssaslıq səviyyəsinə malik modellər vasitəsilə öyrənilməsi və qiymətləndirilməsi onun fəaliyyətinin səmərəliliyini artırmaq üçün ehtiyatları aşkar etməyə və subyektlərin innovativ inkişaf istiqamətlərini tənzimləməyə imkan verir. Bu baxımdan, maliyyə potensialialının yüksəldilməsinin məqsədi davamlı iqtisadi fəaliyyətə əsaslanaraq bütövlükdə iqtisadiyyatın inkişafını təmin etməkdir.

Üçüncü fəsil **maliyyə potensialından istifadənin yaxşılaşdırılması və qiymətləndirilməsinin inkişaf etdirilməsi perspektivlərinə** həsr edilmişdir. Bu fəsildə maliyyə potensialından səmərəli istifadə olunmasında planlaşdırma və proqnozlaşdırmanın rolunun artırılması istiqamətləri, maliyyə resurslarının idarə olunması

mexanizminin təkmilləşdirilməsi və maliyyə potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi yolları öz əksini tapmışdır.

Maliyyə potensialından istifadənin planlaşdırılması və proqnozlaşdırılması maliyyə mexanizminin əsas elementlərindən biri kimi qəbul edilməklə, sosial-iqtisadi planlaşdırmanın tərkib hissəsi hesab edilir. Planlaşdırma və proqnozlaşdırma iqtisadiyyatın dayanıqlı inkişafına və iqtisadiyyatın bütün sahələrinin fəaliyyətində tarazlığa nail olmaq, istehsalın yüksək artım tempini və əhalinin sosial müdafiəsini təmin etmək məqsədi daşıyır. Maliyyə mexanizminin səmərəliliyi və sosial proseslərə fəal təsir göstərməsi ilk növbədə maliyyə resurslarının hərəkətinin modelləşdirilməsindən, idarəedilməsinin bütün səviyyələrində vəsaitlərin formalaşdırılmasından və bölüşdürülməsindən asılıdır. Bu proses, pul vəsaitləri daxilolmalarının ardıcıllığını müəyyən etməklə maliyyə göstəricilərinin qarşılıqlı əlaqələndirilmə sisteminin yaradılmasını tələb edir.

Maliyyə potensialından istifadəni xarakterizə edən göstəricilərin səmərəliliyi əsasən maliyyə planlaşdırılması və proqnozlaşdırılması hesabına əldə edilir. Təcrübədə maliyyə proqnozu planlaşdırmadan əvvəl hazırlanır, makro və mikro səviyyələrdə maliyyə resurslarının hərəkətini idarə etmək imkanlarını müəyyənləşdirir. Maliyyə planlaşdırmasından istifadə etməklə proqnozlar dəqiqləşdirilir, konkret vəzifələrin həyata keçirilməsi ardıcıllığı müəyyən edilir. Maliyyə planlaşdırmasını, maliyyə tapşırıqlarının hazırlanmasına, onların nəzərdə tutulan müddətdə həyata keçirilməsinə yönəlmiş proses kimi də xarakterizə etmək olar.

Ölkənin sosial-iqtisadi inkişafı, o cümlədən iqtisadiyyatın müxtəlif sahələrinin və subyektlərin səmərəli fəaliyyəti maliyyə potensialının mövcudluğundan, ondan istifadənin səmərəliliyindən və effektiv şəkildə idarə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Bu və ya digər iqtisadi fəaliyyət növü ilə məşğul olan sahələrin kifayət qədər maliyyə təminatı, maliyyə resurslarının səfərbər edilməsi üsullarının və mənbələrinin düzgün seçilməsi, onlardan istifadənin ən optimal istiqamətlərinin müəyyən edilməsi sayəsində gəlirlərin artımına nail olmaq mümkündür.

Araşdırmalar göstərir ki, maliyyə resurslarının yüksək keyfiyyətli

və səmərəli idarəetmə mexanizmini formalaşdırmaq üçün xüsusi aktuallıq kəsb edən ardıcıllıq prinsipinə riayət etmək lazımdır. Maliyyə potensialının səviyyəsi və maliyyə bazarlarının şərtləri subyektlərin kifayət miqdarda maliyyə resursları formalaşdırmaq imkanlarını genişləndirir və ya məhdudlaşdırır. Bütün bunlar iqtisadi subyektin fəaliyyəti və inkişafı strategiyasının ən mühüm elementlərindən biri kimi maliyyə resurslarının səmərəli şəkildə idarə edilməsi üzrə siyasətin hazırlanması zərurətini müəyyən edir.

Beləliklə, müəssisələrin maliyyə resurslarının idarə edilməsi mexanizmi resursların səmərəli şəkildə istifadəsi ilə bağlı maliyyə üsullarının, habelə müəssisələrlə digər təsərrüfat subyektləri arasında münasibətlərin təşkili formalarına əsaslanır. Təbii olaraq, müəssisələrin ümumi fəaliyyəti, maliyyə sabitliyi və inkişaf perspektivləri əsasən maliyyə mexanizminin idarə edilməsinin effektivliyindən asılıdır. Beləliklə, maliyyə mexanizminin səmərəliliyini təmin etmək və resursların idarə edilməsinin effektivliyini artırmaq üçün göstəricilər sistemini hazırlamaq və onları sistemli şəkildə qiymətləndirmək vacibdir.

Maliyyə resurslarının mövcudluğu ilə yanaşı maliyyə potensialından istifadənin səmərəliliyinin təmin edilməsi həm makro, həm də mikroiqtisadiyyatda ən vacib məsələlərdən hesab edilir. Maliyyə potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi ilə istehsal potensialının gücləndirilməsi, habelə iqtisadi fəaliyyət sahələrinin maliyyələşdirilməsi imkanları artır. Maliyyə potensialından səmərəli istifadə, sərf olunan resurslarla müvafiq dövr ərzində əldə edilmiş nəticələr arasındakı nisbət kimi başa düşülür.

Göstərilənlərdən aydın olur ki, hazırda maliyyə resurslarından istifadənin səmərəliliyi problemi həm dövlət, həm də təsərrüfat subyektləri üçün ən vacib məsələlərdəndir. İqtisadiyyatın və bütövlükdə cəmiyyətin müxtəlif sahələrinin səmərəli inkişafı bilavasitə maliyyə resurslarının cəlb edilməsindən və subyektlərin onlardan səmərəli istifadəsindən asılıdır. Bununla əlaqədar, maliyyə resurslarından istifadənin səmərəliliyi istehsal potensialını, habelə bu və ya digər fəaliyyət sahələrinin maliyyələşdirilməsini artırmaqda əsaslı rol oynayır.

Beləliklə, maliyyə stimullaşdırılması iqtisadi qanunların həyata

keçirilməsi və maliyyə potensialından səmərəli istifadə siyasəti olub, maliyyə resurslarının bölgü bazasının artırılmasına şərait yaradır və resursların yenidən bölgüsünü təmin edir.

## NƏTİCƏ

Maliyyə potensialının formalaşması, onun qiymətləndirilməsi vasitələrindən istifadə etməklə mövcud problemlərin aşkara çıxarılması, maliyyə potensialından istifadənin planlaşdırılması və proqnozlaşdırılması, idarəetmənin təkmilləşdirilməsi, maliyyə potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi perspektivlərinin müəyyən edilməsi istiqamətində araşdırmalar bir sıra nəticələri ümumiləşdirməyə imkan verir. Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, maliyyə potensialının elementlərinin müəyyənləşdirilməsinə fərqli nəzəri yanaşmaların olması onun formalaşması və inkişafı imkanlarının konkretləşdirilməsini mümkünsüz edir. Geniş mənada maliyyə potensialı maliyyə sektorunun, iqtisadi sahələr və subyektlərin maliyyə resurslarının formalaşması, bölgüsü və toplanması məqsədilə mümkün resursların, onların cəlb edilməsi üçün şəraitin məcmusu kimi müəyyən edilə bilər. Hazırda iqtisadi potensialın bütün elementləri arasında maliyyə potensialı ən mühüm vaciblərdən biri kimi çıxış edir. Maliyyə potensialının elementləri kimi dövlət büdcəsi, büdcədən kənar fondlar, kredit təşkilatları, müəssisə və təşkilatlar, investisiya fondları kimi komponentləri ayırmaq olar.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, iqtisadi inkişaf strategiyası hazırlanarkən onun maliyyə potensialını nəzərə almaq vacibdir. Eyni zamanda, xarici və daxili mühitdə baş verən dəyişiklikləri nəzərə alaraq, maliyyə potensialının qiymətləndirilməsi və idarə edilməsi mexanizminin hazırlanması, planlaşdırma və proqnozlaşdırmanın həyata keçirilməsi, maliyyə münasibətlərinin inkişafı tədbirlərinin, o cümlədən maliyyə potensialından daha səmərəli istifadə imkanlarının və səmərəliliyin yüksəldilməsi perspektivlərinin müəyyən edilməsi vacibdir.

Göstərilənlərə əsaslanaraq maliyyə potensialının qiymətləndirilməsi vasitələrindən istifadə etməklə maliyyə

potensialından istifadənin yaxşılaşdırılması və səmərəliliyinin yüksəldilməsi perspektivlərini, bu istiqamətdə nəzərə alınması və həyata keçirilməsi vacib olan tədbirləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Maliyyə potensialı bazar və iqtisadi potensiala əsaslandığından onun məqsədlərinin mikro və makro səviyyədə müəyyənləşdirilməsi vacibdir. Bazar potensialı iqtisadi potensialın bir hissəsi kimi müxtəlif elementlərin formalaşması və istifadəsi zamanı inkişaf edən rəqabət mühitində fəaliyyət göstərir. Maliyyə potensialı subyektlər arasında qarşılıqlı münasibətlərə əsaslanır. Ona görə maliyyə potensialının formalaşmasına təsir edən amilləri həm iqtisadiyyatın sferalarının, həm də subyektlərin potensial inkişafını müəyyən edən əsas amillər - istehsal imkanları, demoqrafik və ekoloji amillər, idarəetmə, xarici təsirlər, maliyyə axınlarının idarə edilməsi və s. şəklində qruplaşdırmaq vacibdir.

2. Maliyyə potensialının əlavə dəyər yaradılması baxımından qiymətləndirilməsi və bu baxımdan alternativ metodların seçilməsi onun dayanıqlı iqtisadi inkişafdakı rolunu və əhəmiyyətini artırır. Ona görə maliyyə potensialının qiymətləndirilməsində bir-birindən asılı olan kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin nəzərə alınması əsas şərtlərdəndir.

3. Maliyyə potensialının artırılması üçün maliyyə sektorunda bütün səviyyələrdə institusional dəyişikliklərə ehtiyac olduğunu qeyd etmək olar. Xüsusilə, maliyyə və bank sektoruna mənfi təsir göstərən, eyni zamanda iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafında qeyri-mütənasibliyi artıran maliyyə bazarının tənzimlənməsi vəziyyəti, bu sahəyə yeni yanaşmaların formalaşdırılmasını zəruri edir. Daha effektiv tənzimləyici tədbirlərin məqsədəuyğunluğu təkcə ayrı-ayrı ölkələrdə müsbət nəticələrlə deyil, həm də beynəlxalq tənzimləmə səviyyəsində analoji təcrübəyə keçidlə bağlıdır. Maliyyə-bank sektorunun tənzimlənməsi sabit gəlirlərin genişləndirilməsi, iqtisadi maraqların stimullaşdırılması vasitəsilə maliyyə münasibətlərinin təkmilləşdirilməsini tələb edir. Bu, maliyyə-bank sektorunda tədbirlərin ümumi iqtisadi prioritetlərlə əlaqələndirilməsinə, habelə maliyyə tənzimlənməsinin uyğunlaşdırılmasına imkan verə bilər. Kredit resurslarına əlçatanlığın

təmin edilməsi də maliyyə və bank sektorunun tənzimlənməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə söykənir.

4. Büdcə münasibətlərinin, bank sektorunun və maliyyə bazarının inkişafı iqtisadiyyatın müxtəlif sferalarına və subyektlərin fəaliyyətinə vəsaitlərin cəlb edilməsi yolu ilə maliyyə potensialının formalaşmasını və ondan istifadənin səmərəliliyinin artırılmasını təmin edə bilər. Bununla belə, bu istiqamətdə tədbirlərin həyata keçirilməsi dövlət siyasətinin təkmilləşdirilməsini, o cümlədən iqtisadi siyasətin maliyyə komponentinin fərqləndirilməsini, vergi dərəcələrinin müəyyən edilməsi mexanizmində islahatlar aparılmasını, tənzimləmə yanaşmalarının dəyişdirilməsini tələb edir. Daha az gəlirli və maliyyə potensialı zəif olan sahələrə güzəştlərin tətbiqi ilə vergi mexanzmində dəyişikliklər effektiv nəticələri şərtləndirə bilər.

5. Maliyyə potensialı likvidlik, ödəmə qabiliyyəti və maliyyə sabitliyi arasında əlaqələri ehtiva etdiyindən onların birləşməsi uzunmüddətli fəaliyyətə yönəlmiş balanslaşdırılmış maliyyə strategiyasının həyata keçirilməsi zərurətini yaradır. Bu baxımdan maliyyə potensialının formalaşdırılması siyasətinin qiymətləndirilməsi üçün aşağıdakı məsələlərin həllini vacib hesab etmək olar: əlavə dəyər və maliyyə potensialı arasında əlaqənin qurulması; maliyyə potensialının müəyyən edilməsi üçün ona təsir edən göstəricilər bazasının seçilməsi; əldə edilən nəticələrin müqayisəli qiymətləndirilməsi əsasında maliyyə potensialının artırılması ehtiyatlarının müəyyən edilməsi.

6. Maliyyə potensialından səmərəli istifadə üzrə strategiyanın aşağıdakı mərhələlərə uyğun şəkildə formalaşdırılması məqsədəuyğun hesab edilə bilər: maliyyə potensialının vəziyyətinə təsir edən xarici və daxili amillərin müəyyən edilməsi; maliyyə potensialının formalaşması üsullarının, metodlarının, vasitələrinin seçilməsi; hərtərəfli qiymətləndirmə əsasında maliyyə potensialının formalaşmasının xüsusiyyətlərinin müəyyən edilməsi; hədəflərin müəyyən edilməsi və alternativ strateji maliyyə qərarlarının qəbulu; qərarların icrasının təşkili; nəticələrin effektivliyinə nəzarət və qiymətləndirilməsi; qiymətləndirmənin nəticələrinə əsasən strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi; strateji inkişaf yollarını

təmin edən maliyyə imkanlarının proqnozlaşdırılması; maliyyə imkanları və perspektivləri nəzərə alınmaqla maliyyə potensialı mənbələrinin formalaşdırılması istiqamətlərinin müəyyən edilməsi.

7. Maliyyə resurslarının idarə edilməsi sisteminin bütün komponentlərinin qarşılıqlı əlaqəsi maliyyə sistemində təşkilati əlaqələrin qurulması üçün əsasdır. Bu baxımdan maliyyə mexanizminin idarə edilməsinin müasir modellərinin seçilməsi istehsal prosesi zəncirinin idarə olunmasından, ona təsir edən daxili və xarici amillərdən əhəmiyyətli dərəcədə asılıdır. Maliyyə resurslarının idarə edilməsinin səmərəliliyi onun idarəetmə mexanizminə və bu mexanizmə uyğun qurulmuş maliyyə nəzarəti sisteminə təsir göstərir. Ona görə maliyyə resurslarının idarə edilməsinin təkmilləşdirilməsi prosesində maliyyə sisteminin qiymətləndirilməsinə kompleks yanaşma zəruridir.

8. Maliyyə resurslarından istifadənin səmərəliliyi problemi həm dövlət, həm də təsərrüfat subyektləri üçün vacib məsələ hesab olunur və maliyyə resurslarından istifadənin səmərəliliyi istehsal potensialının yüksəldilməsində, habelə bu və ya digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinin artırılmasında ciddi rol oynayır. Bu baxımdan maliyyə stimullaşdırılması bütövlükdə iqtisadi resurslardan səmərəli istifadə amillərinin təhlilini və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsini nəzərdə tutur və aşağıdakı üsullarla həyata keçirilməsi məqsədəuyğundur: maliyyə resurslarının rasional istifadəsi; həvəsləndirmə fondlarının formalaşdırılması; maliyyə stimullarından istifadə.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri dərc edilmişdir.**

1. İsmayılova T.V. Maliyyə potensialı və onun formalaşması mexanizmi // – Gəncə: ADAU-nun Elmi əsərləri, 2020, № 2. – s. 97-99.

2. İsmayılova T.V. Maliyyə potensialı və onun idarə edilməsinin effektivliyi // – Gəncə: (UTECA) İnnovasiyalı İqtisadiyyat və Menecment, 2021, № 2/6. – s. 62-66.

3. İsmayılova T.V. Maliyyə potensialının qiymətləndirilməsinin

maliyyə sabitliyinin təmin olunmasında əhəmiyyəti // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2022, № 1 (64). – s. 166 – 173.

4. İsmayılova T.V. Ölkənin maliyyə potensialının qiymətləndirmə metodikası. // – Sumqayıt: “Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri” mövzusunda beynəlxalq elmi konfrans, 2022. – s. 279-282.

5. İsmayılova T.V. Maliyyə potensialının formalaşmasının nəzəri əsasları // – Gəncə: Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş “Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri” mövzusunda beynəlxalq elmi konfrans, 2022, 5-ci hissə. – s. 171-173.

6. İsmayılova T.V. Maliyyə münasibətlərinin inkişafında dövlət siyasətinin prioritetləri // – Sumqayıt: SDU-nun 60 illik yubileyinə həsr olunmuş “Universitet elminin və təhsilinin müasir problemləri” mövzusunda respublika elmi konfransı, 17-18 noyabr 2022. – s. 400-402.

7. Исмайлова Т.В. Факторы, влияющие на формирование финансового потенциала экономики // – Москва: Экономика и предпринимательство, 2022, № 5 (142). Vol. 16, – с. 118-121.

8. Исмайлова Т.В. Перспективы повышения финансового потенциала // – Manchester, United Kingdom: “International scientific innovations in human life” Proceedings of XIV International Scientific and Practical Conference, 4-6 August 2022, – с. 380-384.

9. Opportunities and problems of application of index insurance model in Azerbaijan. // – Germany: FEB-Fresenius Environmental Bulletin, 2022, Volume 31, №-10. – s. 10523-10532.

10. İsmayılova T.V. Maliyyə potensialından istifadənin yaxşılaşdırılması yolları. // – Gəncə: Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Qeyri-neft sektoru və qlobal ərzaq təhlükəsizliyi problemləri” mövzusunda respublika elmi-praktik konfransı, 27-28 Aprel, 2023. – s. 591-594.

11. Современные аспекты финансовой политики: эффективность использования финансовых ресурсов // – Berlin, Germany: Proceedings of II International Scientific And Practical Conference, 16-18 October, 2023. – s. 354-357.

12. Планирование и прогнозирование использования финансового потенциала // – Berlin, Germany: Proceedings of III International Scientific and Practical Conference, 13-15 November 2023. – s. 497-501.



Dissertasiyanın müdafiəsi 30 yanvar 2025-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.12.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 40263 işarə

Tiraj: 100